**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm
Tədris məsələləri üzrə prorektor v.i.e:
_______________dos. Zaur Məmmədov
"30" 01 2026-cı il

**Fənn sillabusu**

**İxtisasın şifri və adı:** 6001001–Azərbaycan dili və ədəbiyyatı müəllimliyi A+B
**Fakültə:** Filologiya və ibtidai təhsil
**Kafedra:**Azərbaycan dili və ədəbiyyat
**I.Fənn haqqında məlumat:**
**Fənnin adı: Müasir Azərbaycan dili-4.** Fənn üzrə proqram Azərbaycan Respublikası Təhsil Nazirliyinin 09.12.2014-cü il tarixli 1246 saylı əmri ilə təsdiq edilmişdir.
**Kodu:**İF-B06.4
**Tədris ili:** II – 2025/2026
**Semestr:** IV (yaz)
**Tədris yükü:** Cəmi:210 saat. Auditoriya saatı 75saat (45 saat müh., 30 saat sem.)
**Tədris forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 7 kredit
**II.Müəllim haqqında məlumat:**
**Soyadı, adı, ata adı, elmi dərəcəsi və elmi adı:** Dənziyeva Könül Babaş, fil.ü.f.dok., dos.
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Əli Məmmədov küçəsi - 40 , 2 saylı tədris korpusu
**Məsləhət günləri və saatı:** III gün saat $11^{50}$-$12^{20}$
**III.Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**
1.Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, 2007.
2.Ə.Abdullayev, Y.Seyidov, A.Həsənov. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, 2007.
3..H.Mirzəzadə. Azərbaycan dilinin tarixi sintaksisi. Bakı, 1968.
4. Y.Seyidov. Azərbaycan ədəbi dilində söz birləşmələri. Bakı, 2004.
5.Müasir Azərbaycan dili, III hissə, EA nəşri-Bakı, 1981
**IV. Prerekvizit fənlər:** Fənnin tədrisi üçün öncədən Müasir Azərbaycan dili-3 (Morfologiya) fənninin tədrisinə ehtiyac vardır.
**V. Korekvizit fənlər:** Fənnin tədrisi ilə eyni zamanda başqa fənnin tədrisinə ehtiyac yoxdur.
**VI. Fənnin təsviri və məqsədi :** Qrammatikanın bir şöbəsi olan sintaksis sözlərin söz birləşməsi və cümlə şəklində, cümlələrin mətn şəklində birləşməsi qaydalarından bəhs edən elmdir. Sintaksisin əsas vahidləri söz birləşmələri, cümlə və sintaktik bütövlərdir. Bunlar sintaksisin tədqiq və öyrənmə obyektləridir. Bunlarla yanaşı, sintaktik əlaqələr, sintaktik semantika problemləri də elmi sintaksisin əsas anlayışlarındandır. Sözlər və cümlələr arasında əlaqə, sözlərin və cümlələrin birləşməsi, ümumiləşmiş şəkildə desək, bağlılıq məsələsi sintaksisin əsas məsələsidir.

Bu fənnin əsas məqsədi dilin sintaktik quruluşu, o cümlədən söz birləşmələri və onların quruluşca növləri, ismi, feili və zərf birləşmələri, sadə cümlə və onun növləri, cümlə üzvləri, tabeli və tabesiz mürəkkəb cümlələr, qarışıq tipli mürəkkəb cümlələr, mürəkkəb sintaktik bütövlər haqqında tam təsəvvür yaratmaqdan ibarətdir.

**VII.Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII.Qiymətləndirmə:** Fənn üzrə tələbələrin biliyi 100 ballıq sistemlə qiymətləndirilir. Yəni tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı (50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə (aralıq qiymətləndirmə) görə verilir.

Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:

- 20 bal - seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal - kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.

Qiymət meyarları aşağıdakılardır:

- 10 bal - tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal - tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu tam aça bilir;
- 8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal - tələbənin cavabı əsasən düzgündür;
- 5 bal - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal - cavab yoxdur.

Tələbənin fənn üzrə aralıq qiymətləndirmə balının (imtahanda topladığı balın) miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin fənn üzrə aralıq qiymətləndirmə balı cari qiymətləndirmə balına (semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala) əlavə olunmur.

Fənn üzrə cari və aralıq qiymətləndirmənin ümumi nəticəsinə görə tələbənin biliyi yekun olaraq aşağıdakı kimi qiymətləndirilir:

| Bal aralığı (göstərilən ballar daxil olmaqla) | Hərflə işarəsi | Sözlə yazılışı |
|---|---|---|
| 91-100 bal | A | əla |
| 81-90 bal | B | çox yaxşı |
| 71-80 bal | C | yaxşı |
| 61-70 bal | D | kafi |
| 51-60 bal | E | qənaətbəxş |
| 51-baldan aşağı | F | qeyri-kafi |

**IX.Davranış qaydalarının pozulması:**

Tələbə Universitetin Daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.

**X. Təqvim mövzu planı:** *Mühazirə 45 saat , seminar 30 saat. Cəmi: 75 saat*

| N | Keçirilən mühazirə məşğələlərinin məzmunu | Saat | Tarix |
|---|---|---|---|
| 1. | **Sintaksis və onun predmeti**<br>Plan:<br>1.Sintaksis fənninin obyekti, məqsəd və vəzifələri<br>2.Cümlə ünsiyyətin əsas vahidi kimi<br>3. Söyləm və mətn haqqında<br>4.Sintaksisi öyrənmə mərhələləri və istiqamətləri<br>Mənbə: [1,2,3,4,6,7] | 2 | |
| 2. | **Sintaktik əlaqələr. Tabesizlik əlaqəsi. Tabelilik əlaqəsi və onun növləri**<br>Plan:<br>1.Sözlər arasında ümumiləşmiş (qrammatik) məna əlaqələri<br>2. Sözlər arasında qrammatik əlaqələr<br>3.Tabesizlik əlaqəsi<br>4.Tabelilik əlaqəsi və onun növləri<br>a)Yanaşma əlaqəsi<br>b)Uzlaşma əlaqəsi<br>c)İdarə əlaqəsi<br>Mənbə: [1,2,3,8] | 2 | |
| 3. | **Sintaktik vahidlərin tərtibində başqa vasitələrin rolu**<br>1.Soz formaları, bağlayıcı, qoşma və əvəzliklər<br>2. İntonasiya, fasilə və məntiqi vurğu<br>3. Təkrarlar və komponentlərin paralelliyi<br>Mənbə: [1,2,3,4,6,7] | 2 | |
| 4. | **Söz birləşməsi və onun əlamətləri**<br>Plan:<br>1.Söz birləşmələri haqqında ümumi məlumat<br>2.Sintaqm anlayışı<br>3.Söz birləşmələrinin növləri. Sərbəst birləşmələr<br>4.Sabit birləşmələr<br>Mənbə: [1,2,3,4,5,8] | 2 | |
| 5. | **Söz birləşmələrinin əsas tərəfə görə təsnifi. İsmi birləşmələr**<br>Plan:<br>1.İsmi birləşmələr və növləri<br>2. I növ təyini söz birləşmələri | | |

| | | | |
|---|---|---|---|
| | 3. II növ təyini söz birləşmələri<br>4. III növ təyini söz birləşmələri<br>[1,2,3,4,5] | 2 | |
| 6. | **Feili birləşmələr və zərf birləşmələri**<br>1.Feili birləşmələr: Məsdər, feili sifət və feili bağlama birləşmələri<br>2.Zərf birləşmələri<br>3.Sadə və mürəkkəb birləşmələr<br>Mənbə: [1,2,3,4,5] | 2 | |
| 7. | **Cümlə və onun əlamətləri. Cümlənin təsnifi**<br>Plan:<br>1.Cümlə və onun əlamətləri<br>2.Cümlənin təsnifi prinsipləri<br>3.Məqsəd və intonasiyaya görə cümlənin növləri<br>Mənbə: [1,2,3,4] | 2 | |
| 8. | **Cümlə üzvləri. Baş üzvlər**<br>Plan:<br>1.Cümlə üzvləri haqqında ümumi məlumat<br>2.Baş üzvlər.<br>3.Mübtəda, onun əsas xüsusiyyətləri və ifadə vasitələri<br>3.Xəbər və onun ifadə vasitələri<br>Mənbə: [1,2,3,4] | 2 | |
| 9. | **Ikinci dərəcəli üzvlər**<br>Plan:<br>1.Tamamlıq və onun ifadə vasitələri<br>3.Təyin və onun ifadə vasitələri<br>4.Zərflik və onun ifadə vasitələri<br>Mənbə: [1,2,3,4] | 2 | |
| 10. | **Cümlənin determinant üzvləri. Əlavələr.Cümlə üzvlərinin sırası**<br>Plan:<br>1.Determinant anlayışı<br>2.Cümlənin determinant zərflikləri<br>3.Cümlənin determinant tamamlıqları<br>4.Mürəkkəb cümlələrdə determinant üzvlər<br>5.Əlavələr haqqında ümumi məlumat<br>6.Xüsusiləşən və xüsusiləşməyən əlavələr<br>7.Cümlə üzvlərinin sırası<br>Mənbə: [1,2,3] | 2 | |
| 11. | **Cüttərkibli və təktərkibli cümlələr**<br>Plan:<br>1.Cüttərkibli cümlələr<br>2.Müxtəsər və geniş cümlələr<br>3.Təktərkibli cümlələr və onun növləri<br>a) Qeyri-müəyyən şəxsli cümlə<br>b) Ümumi şəxsli cümlə<br>c) Şəxssiz cümlə<br>d) Adlıq cümlə<br>Mənbə: [1,2,3,4,8] | 2 | |

| | | | |
|---|---|---|---|
| 12. | **Bütöv və yarımçıq cümlələr.Üzvlənməyən cümlələr**<br>1.Bütöv cümlələrin quruluş xüsusiyyətləri<br>2.Yarımçıq cümlələr və onun növləri<br>3. Üzvlənməyən cümlə və onun növləri<br>a) Söz cümlələr<br>b) Vokativ cümlələr<br>Mənbə: [1,2,3,4,8] | 2 | |
| 13. | **Sadə cümləni genişləndirən vasitələr**<br>Plan:<br>1.Həmcins üzvlü cümlələr<br>2. Xüsusiləşmiş üzvlü cümlələr<br>3.Xitablar<br>4. Ara sözlər və ara cümlələr<br>5.Əlavə cümlələr<br>Mənbə: [1,2,3,4,8] | 2 | |
| 14. | **Mürəkkəb cümlə haqqında ümumi məlumat. Tabesiz mürəkkəb cümlələr və onun komponentləri arasında məna əlaqələri**<br>Plan:<br>1.Mürəkkəb cümlə anlayışı<br>2.Tabesiz mürəkkəb cümlələr<br>3.Tabesiz mürəkkəb cümlənin komponentləri arasında məna əlaqələri:<br>a)Birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələr<br>b)Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələr<br>c)Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr<br>d)Qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr<br>e)Bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlələr<br>ç)Qoşulma əlaqəli tabesiz mürəkkəb cümlələr<br>Mənbə: [1,2,3,4] | 2 | |
| 15. | **Tabeli mürəkkəb cümlələr və onun komponentlərini bağlayan vasitələr**<br>Plan:<br>1.Tabeli mürəkkəb cümlə anlayışı<br>2.Budaq cümləni baş cümləyə bağlayan vasitələr:<br>a) Bağlayıcı və qəlib sözlər<br>b) Bağlayıcı sözlər<br>c) İntonasiya<br>d) Şəkilçilər<br>3.Bağlayıcı vasitələrə görə budaq cümlələrin növləri<br>4.Budaq cümlənin yeri<br>Mənbə: [1,2,3,4] | 2 | |

| | | | |
|---|---|---|---|
| 16. | **Tabeli mürəkkəb cümlələrin budaq cümləyə görə təsnifi. Mübtəda və xəbər budaq cümlələri**<br>Plan:<br>1.Tabeli mürəkkəb cümlənin budaq cümləyə görə təsnifi<br>2. Mübtəda budaq cümləsini baş cümləyə bağlayan vasitələr<br>3. Mübtəda budaq cümləsinin tipləri<br>4. Xəbər budaq cümləsini baş cümləyə bağlayan vasitələr<br>5.Xəbər budaq cümləsinin tipləri<br>Mənbə: [1,2,3,4] | 2 | |
| 17. | **Tamamlıq və təyin budaq cümlələri**<br>1.Tamamlıq budaq cümləsini baş cümləyə bağlayan vasitələr<br>2.Tamamlıq budaq cümləsinin tipləri<br>3.Təyin budaq cümləsini baş cümləyə bağlayan vasitələr<br>Mənbə: [1,2,3,4] | 2 | |
| 18. | **Zərflik budaq cümlələri**<br>1.Tərz budaq cümləsi<br>2.Dərəcə budaq cümləsi<br>3.Zaman budaq cümləsi<br>4.Yer budaq cümləsi<br>5.Kəmiyyət budaq cümləsi<br>Mənbə: [1,2,3,4] | 2 | |
| 19. | **Zərflik budaq cümlələri**<br>1.Səbəb budaq cümləsi<br>2.Məqsəd budaq cümləsi<br>3.Şərt budaq cümləsi<br>4.Qarşılaşdırma budaq cümləsi<br>5.Nəticə budaq cümləsi<br>6.Qoşulma budaq cümləsi<br>Mənbə: [1,2,3,4] | 2 | |
| 20. | **Qarışıq tipli mürəkkəb cümlələr**<br>Plan:<br>1.Qarışıq tipli tabesiz mürəkkəb cümlələr<br>2.Qarışıq tipli tabeli mürəkkəb cümlələr<br>Mənbə: [1,2,3,4] | 2 | |
| 21. | **Mətn və onun daxili vahidləri. Mətnin komponentləri və sərhədlərinin müəyyənləşdirilməsi**<br>Plan:<br>1.Mətn haqqında ümumi məlumat<br>2.Mətnin növləri:makromətnlər və mikromətnlər<br>3.Sintaktik bütöv anlayışı<br>4. Mətnin komponentləri və sərhədlərinin müəyyənləşdirilməsi<br>Mənbə: [1,2,3,4] | 2 | |
| 22. | **Aktual üzvlənmə məsələsi. Sintaktik bütövlərin qrammatik semantikası**<br>Plan:<br>1.Aktual üzvlənmə məsələsi<br>2.Tema və rema anlayışları<br>3.Sintaktik bütövlərin qrammatik semantikası | 2 | |

| | | | |
|---|---|---|---|
| | Mənbə: [1,2,3,4] | | |
| 23. | **Vasitəli və vasitəsiz nitq. Durğu işarələri**<br>Plan:<br>1.Vasitəli nitq<br>2.Vasitəsiz nitq<br>3.Durğu işarələri<br>Mənbə: [1,2,3,4] | 1 | |
| N | Keçirilən seminar məşğələlərinin məzmunu | | |
| 1. | Sintaksis və onun predmeti. Sintaktik əlaqələr | 2 | |
| 2. | Sintaktik vahidlərin tərtibində başqa vasitələrin rolu. Söz birləşməsi və onun əlamətləri | 2 | |
| 3. | Söz birləşmələrinin əsas tərəfə görə təsnifi. İsmi birləşmələr | 2 | |
| 4. | Feili birləşmələr və zərf birləşmələri | 2 | |
| 5. | Cümlə və onun əlamətləri. Cümlənin təsnifi | 2 | |
| 6. | Cümlə üzvləri. Baş üzvlər. İkinci dərəcəli üzvlər | 2 | |
| 7. | Cümlənin determinant üzvləri. Əlavələr.Cümlə üzvlərinin sırası | 2 | |
| 8. | Cüttərkibli və təktərkibli cümlələr | 2 | |
| 9. | Bütöv və yarımçıq cümlələr.Üzvlənməyən cümlələr Sadə cümləni genişləndirən vasitələr | 2 | |
| 10. | Mürəkkəb cümlə haqqında ümumi məlumat. Tabesiz mürəkkəb cümlələr və onun komponentləri arasında məna əlaqələri | 2 | |
| 11. | Tabeli mürəkkəb cümlələr və onun komponentlərini bağlayan vasitələr | 2 | |
| 12. | Tabeli mürəkkəb cümlələrin budaq cümləyə görə təsnifi. Mübtəda , xəbər tamamlıq və təyin budaq cümlələri | 2 | |
| 13. | Zərflik budaq cümlələri. Qarışıq tipli mürəkkəb cümlələr | 2 | |
| 14. | Mətn və onun daxili vahidləri. Mətnin komponentləri və sərhədlərinin müəyyənləşdirilməsi | 2 | |
| 15. | Aktual üzvlənmə məsələsi. Sintaktik bütövlərin qrammatik semantikası. Vasitəli və vasitəsiz nitq. Durğu işarələri | 2 | |

**XI. Fənn üzrə tələblər:**Tələbələr aşağıdakıları bilməlidirlər:

-Dilin sintaktik quruluşu ilə tanış olacaqlar.

-Nəzəri şəkildə öyrəndiklərini praktikaya tətbiq etməyi öyrənəcəklər.

**XII. Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**

-mühazirə, seminarlar və praktiki tapşırıqlar;
-video və audio mühazirələr;
-müstəqil iş / araşdırma
-debat

**XIII. Fənn üzrə təlimin nəticələri:**

FTN 1. Dilin qrammatik quruluşunun özəlliklərimi şərh edir;

FTN 2. Sadə və qarışıq tipli mürəkkəb cümlələrin infromasiya mübadiləsi zamanı rolunu fərqləndirir;

FTN 3. Şifahi nitqdə cümlənin məqsəd və intonasiyaya görə növlərindən istifadə imkanlarını nümayiş etdirir;

FTN 4. Dilin sintaktik quruluşu ilə bağlı məlumatları sintez edir;

FTN 5. Nitqin hər iki növündə qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan söz və birləşmələri müqayisə edir və əlaqələndirir;

FTN 6. Qrammatik bilik və bacarıqlardan əməli yazı növlərində peşəkarlıqla istifadə edir.

**XIV.Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XV: Kollokvium sualları:**

**I Kollokvium sualları**

1. Sintaksis haqqında ümumi məlumat
2. Cümlə ünsiyyətin əsas vahidi kimi
3. Sintaktik əlaqələr. Tabesizlik əlaqəsi
4. Sözlər arasında ümumiləşmiş (qrammatik) məna əlaqələri
5. Tabelilik əlaqəsi və onun növləri
6. Sintaktik vahidlərin tərtibində başqa vasitələrin rolu
7. Söz birləşməsi və növləri
8. Söz birləşməsi və sintaqm anlayışı
9. I və II növ təyini söz birləşmələri
10. III növ təyini söz birləşməsi
11. Feli birləşmələr və zərf birləşmələri
12. Sərbəst və sabit söz birləşmələri
13. Cümlə və onun əlamətləri
14. Nəqli cümlə və sual cümləsi
15. Əmr və nida cümləsi

**II Kollokvium sualları**

1. Mübtəda və onun ifadə vasitələri
2. Xəbər və onun ifadə vasitələri
3. Tamamlıq və onun ifadə vasitələri
4. Təyin və onun ifadə vasitələri
5. Zərflik və onun ifadə vasitələri
6. Cümlənin determinant üzvləri
7. Əlavələr haqqında ümumi məlumat
8. Cümlə üzvlərinin sırası
9. Təktərkibli cümlələr. Qeyri-müəyyən şəxsli cümlə
10. Ümumi şəxsli cümlə
11. Şəxssiz və adlıq cümlə
12. Bütöv və yarımçıq cümlələr
13. Üzvlənməyən cümlə və onun növləri
14. Həmcins üzvlü cümlələr
15. Mürəkkəb cümlə haqqında ümumi məlumat

**XVI.İmtahan sualları:**

1. Sintaksis haqqında ümumi məlumat
2. Cümlə ünsiyyətin əsas vahidi kimi
3. Sintaktik əlaqələr. Tabesizlik əlaqəsi
4. Sözlər arasında ümumiləşmiş (qrammatik) məna əlaqələri
5. Tabelilik əlaqəsi və onun növləri
6. Sintaktik vahidlərin tərtibində başqa vasitələrin rolu
7. Söz birləşməsi və növləri
8. Söz birləşməsi və sintaqm anlayışı

9. I və II növ təyini söz birləşmələri
10. III növ təyini söz birləşməsi
11. Feli birləşmələr və zərf birləşmələri
12. Sərbəst və sabit söz birləşmələri
13. Cümlə və onun əlamətləri
14. Nəqli cümlə və sual cümləsi
15. Əmr və nida cümləsi
16. Mübtəda və onun ifadə vasitələri
17. Xəbər və onun ifadə vasitələri
18. Tamamlıq və onun ifadə vasitələri
19. Təyin və onun ifadə vasitələri
20. Zərflik və onun ifadə vasitələri
21. Cümlənin determinant üzvləri
22. Əlavələr haqqında ümumi məlumat
23. Cümlə üzvlərinin sırası
24. Cüttərkibli cümlələr
25. Müxtəsər və geniş cümlələr
26. Təktərkibli cümlələr. Qeyri-müəyyən şəxsli cümlə
27. Ümumi şəxsli cümlə
28. Şəxssiz və adlıq cümlə
29. Bütöv və yarımçıq cümlələr
30. Üzvlənməyən cümlə və onun növləri
31. Həmcins üzvlü cümlələr
32. Xitablar
33. Ara sözlər və ara cümlələr
34. Mürəkkəb cümlə haqqında ümumi məlumat
35. Tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında məna əlaqələri
36. Birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələr
37. Səbəb-nəticə və aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr
38. Qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr
39. Bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlələr
40. Budaq cümləni baş cümləyə bağlayan vasitələr
41. Bağlayıcı vasitələrə görə budaq cümlələrin növləri
42. Mübtəda budaq cümləsi
43. Xəbər budaq cümləsi
44. Tamamlıq budaq cümləsi
45. Təyin budaq cümləsi
46. Tərz budaq cümləsi
47. Zaman budaq cümləsi
48. Yer budaq cümləsi
49. Kəmiyyət budaq cümləsi
50. Səbəb budaq cümləsi
51. Məqsəd budaq cümləsi
52. Şərt budaq cümləsi
53. Qarşılaşdırma və nəticə budaq cümləläri
54. Qarışıq tipli tabesiz mürəkkəb cümlələr
55. Qarışıq tipli tabeli mürəkkəb cümlələr
56. Makromətnlər və mikromətnlər

57. Aktual üzvlənmə məsələsi
58. Sintaktik bütövlər
59. Vasitəli və vasitəsiz nitq
60. Durğu işarələri

"Müasir Azərbaycan dili-4" fənninin sillabusu 6001001–Azərbaycan dili və ədəbiyyatı müəllimliyi A+B ixtisası (proqramı) üzrə tədris planı və Müasir Azərbaycan dili fənn proqramı əsasında tərtib edilmişdir. "Azərbaycan dili və ədəbiyyat" kafedrasının 30 yanvar 2026-cı il tarixli iclasında təsdiq olunmuşdur (Protokol № 05).

**Fənn müəllimi: dos. K.B.Dənziyeva**

**Kafedra müdiri: dos. Q.İ.Rufullayev**